# "Dəmir Qapı Dərbənd, gəldim qoynuna"

*Dağıstan filarmoniyalarında dəfələrlə çıxış etmiş Aşıq Sultan 70-dən çox saz havasını yerli-yerində bilirdi. O, 7 dastan və rəvayət, 4000 qatardan çox müxtəlif biçimli şeirlərin müəllifidir. Külli miqdarda qoşma, dastan əzbərdən söyləmiş və ifa etmişdir...*

...Dərbənd aşıq mühiti Azərbaycanın şimal bölgəsində də tarixən seçilib-sayılıb. Dərbənd aşıqları bu ərazidə yaşayan ustad sənətçilərlə görüşüb-bilişmiş, hətta meydan verilən məqamlarda aşıq deyişmələrində də saz çalıb, söz demişlər. Dərbəndli aşıq Zərnigarın Abdal-Gülablıdan Valehi yarışa çağırması o vaxtkı Dərbənd aşıq mühitinin sənət səviyyəsindən xəbər verir. Son illər Dağıstan — Dərbənd ərazisində aşıq sənəti demək olar ki, itib getməkdədir. Bu sənətin sonuncu nümayəndəsi aşıq Sultan Seyidov oldu...



*Aşıq Sultan Hacı oğlu Seyidov 1925-ci ildə Katrux kəndində el sənətkarı Hacının ocağında anadan olub. Artıq 13-14 yaşlarında saz çalıb, söz qoşub. Yeddiillik məktəbi bitirəndən sonra Bakıya gəlib, musiqi məktəbinə daxil olub. Oranı uğurla başa vurub. Sonra uzun müddət mədəniyyət sarayları və xalq yaradıcılıq evlərində çalışıb, aşıqların 3 və 4-cü qurultaylarında iştirakçı olub.*

*Sonra Aşıq Sultan Quba mədəniyyət evində işləyib, Quba, Qusar, Dəvəçi, Rutul, Dərbənd aşıqlarının bədii rəhbəri seçilib. Azərbaycan və Aşıq Sultanın "Telli sazım, "Durnalar adlı iki kitabı çıxıb. Dağıstanın Əməkdar incəsənət xadimiydi. O, Çexoslovakiya, Polşa, Macarıstan, Bolqarıstan, İran, Türkiyə və Fransada saz çalıb, söz oxuyub. Aşıq Qəndab, oğlanları Vurğun, Valeh və Saleh, qubalı Aşıq Məmməd, onun bacısı oğlu Üzeyir, balabançı Oruc oğlu Ramazan, dağlı Novruz Novruzov kimi sənətçilər onun şagirdi olublar. Aşıq Sultan Aşıq Şəmşirlə, Azaflı Mikayılla, Aşıq Valehin kötükcəsi Xaspoladla və Aşıq Qəndabla deyişibdir.*

*Aşıq Sultan Moskvada keçirilən 6-cı Ümumdünya festivalının laureatıydı. "Sultanı,*

*"Samuru kimi havaların yaradıcısı da Aşıq Sultan olub. Onu da deyək ki, Aşıq Sultan böyük bir ailənin yükünü təkbaşına çəkirdi. Seyid, Hacı, Vurğun, Valeh, Saleh adlı beş oğlu, Ədilə və Şədilə adlı iki qızı var...*

Aşıq Sultan Seyidovla ilk tanışlığım keçən əsrin 70-ci illərində oldu. Yaşadığım kəndə yolu düşmüşdü. Yadımdadı, Əmin kişinin evində məclis quruldu. Bir küncdə oturub tamaşa edirdim. Aşıq Sultan "Aşıq Qərib dastanını söylədi... Onunla ikinci görüşümsə Dərbəndin Tərəkəmə mahalında, el aşığı Xalid Qaradağlının vətəni olan Qaradağ kəndində oldu. Aşıq Sultan vəfatından iki il əvvəl yenə kəndimizə gəldi, onda Türkiyədən təzəcə qayıtmışdı. Saz çaldı, söz ayıtdı...

Aşıq Sultan qoşmadan savayı gəraylı, cığalı təcnis, müxəmməs, dodaqdəyməzlər söyləyirdi. Hətta onun bağladığı dastanlar da dildə gəzir. Tədqiqatçıların fikrinə görə, "Aşıq Sultan və Qəndab dastanı bunların arasında dəyərli yer tutur. Aşığın yaradıcılığında Dərbəndin, Dağıstanın, Qubanın xüsusi yeri var. Sultan həmişə dostluğu, əmin-amanlığı tərənnüm edir, birliyə, həmrəyliyə səsləyirdi. Deyişmə — aşıq sənətində ən çətini sayılır. Keçmişdə deyişmə zamanı suala cavab tapa bilməyən aşığın sazı əlindən alınardı. Aşıq Sultan belə deyişmələrdə məharətlə iştirak edər, söz altda qalmazdı.

Onun qoşmaları, gəraylıları Azərbaycan aşıq sənətindən bəhrələnib. Doğma Katrux kəndindən başlanan Aşıq Sultan ilhamı doğma yurd-yuvasından qanadlanıban sərhədlər aşdı, ulu türk uluslarına da çatdı. Vəfatından bir az əvvəl Türkiyədən yenicə dönmüş aşıqla son görüşüm Dərbəndin ulu Narınqala divarlarının şahidliyində oldu. Aşığın "Dastanlar cildi işıq üzü görmüşdü, ürəyi şad idi. Bir vaxt kənd məktəbində mənə idman dərsləri keçən oğlu Seyidi xəbər aldım. Çox məyus oldu, çöhrəsinə duman çökdü. "Bir il qabaq Seyidi itirdim, - dedi. Xəbər tutmadığıma görə üzr istədim... Aşıq Sultan bir söz deməyib sazı bağrına basdı:

Dəmirqapı şəhər, gəldim qoynuna,
Həmişə xoş olsun halı Dərbəndin.
Ayna sinəsində min bir bəzək var
Gözəl imiş gül-camalı Dərbəndin.

Deməyin qonağam, gələrəm bir də,
Sultanın ürəyi qalır bu yerdə.
Çətin deyə biləm bircə şer də,
Sözlə bitməz cah-calalı Dərbəndin.

Doğulduğu kənddəki bulaq onun şərəfinə "Sultan bulaq adlanır. Gör qismətə bax, — bu il ustadın anadan olmasının 90 illiyi tamam olur. Aşıq Sultan özü həyatda yoxdusa da, onun sənət çeşməsi gecə-gündüz, qış-bahar çağlamaqdadır. Onun irsi Dağıstan və Azərbaycan xalqları arasında qorunub saxlanan, necə deyərlər, əsən küləklərin, yağan yağmurun, qopan tufanların-qasırğaların bircə daşını-kərpicini belə sarsıda bilmədiyi Dostluq, Qardaşlıq körpüsünün sütunudur. Dərbənd aşıq mühitini Azərbaycanda təmsil edən ustad Aşıq Sultanın irsi hələ çox araşdırmaların seçilib-sayılası mövzusu olacaq, illər ötdükcə, onun ilhamı sərhəd bilməyən qəlbləri bir-birinə zəncir kimi bağlayacaq, dəyərli söz inciləri Aşıq sənətimizdə öz layiqli yerini tutacaqdır...

**Fəxrəddin Qəribsəs**

***1957-ci ildə Dərbəndin Mitəhi kəndində doğulub. 1979-cu ildə pedaqoji məktəbi, 89-da Dağıstan Dövlət Pedaqoji institutunu bitirib. Rus və Azərbaycan dilində yazıb-yaradır. Azərbaycan Yazıçılar Birliyinin, RF Jurnalistlər Ittifaqının üzvüdür. Rus dilində nəşr olunmuş "Mitəhi payızı, "Bədirlənmiş ay, "Əsrin pərdəsi, "Badamı qar şeir kitablarının, "Dədə Qorqudun izi adında dəyərli essenin müəllifidir. "Qafqaz-Media ictimai birliyinin diplomantıdır. F.Qəribsəs Bakıda çap olunan "Poeziya günü, "Ay işığı və başqa toplulardan da oxuculara tanışdır. O Azərbaycan poeziyasını rus dilinə çevirməklə də məşğuldur. Dağıstanda ədəbiyyat tarixini araşdırır, Dərbənd aşıq mühitinə aid məqalələri də vaxtaşırı olaraq dövrü mətbuatda işıq üzü görür.***

***"Qobustan üçün Dərbəndli Aşıq Sultan barədə yazısı da onlardan biridir.***